# Qələmin müqəddəs vəzifəsi

Şəfəq Nasir kəskin, publisistik söz sahibi kimi tanınır. Çünki, yazdıqlarının məğzində həyata obyektiv münasibət var. Münasibət birbaşa yetərincə aydın olanda müəllif özünün əqidəsi naminə sözünü doğru, düzgün mövqeyindən dindirə bilir.

Bəri başdan onu da deyək ki, publisistika janrı sözün ən operativ, çevik hərəkətini təmin edə bilir. Bəlkə də elə bu səbəbdən həyatın qaranlıq, insanın istək və arzularına cavab verə bilməyən tərəfləri publisistika janrında daha çox sözün düzəninə çəkilir. Əgər publisistik janrda yazan müəllif süni şəkildə yazısını yumşaldırsa, onun cəmiyyətə, yəni həyata təsirini zəiflətmiş olur. Amma mühitin çatışmazlıqları, publisistin istedadına uyğun olaraq araşdırılıb, üzə çıxarıla bilirsə və görünən tərəfinə uyğun tənqid olunursa, publisist sözün də, publisistin özünün də nüfuzu yüksəlir. Mühitdə kəskin söz deyə bilən publisistə müasirləri xüsusi hörmət və ehtiram göstərirlər. Çünki publisist sanki cəmiyyətin mənəvi mühitinin həkimidir, cərrahıdır.

Elmi tədqiqat işinin və ədəbi fəaliyyət sahəsinin əsası publisistika ilə bağlı olan Şəfəq Nasir yaradıcılığı boyu bədii nəsr, ədəbi tənqid, esse, bədii etüdlər və digər janrlarla birgə çevik publisistika janrı ilə də ardıcıl məşğul olub. Onun indiyə qədər kitab halında dərc olunmuş əsərləri ilə yanaşı son beş, on ildə yüzlərlə ədəbi publisist, ədəbi tənqid əsərləri də var ki, kitab olmaq növbəsini gözləyir. Bəzən biz, hər hansı bir müəllifi öyrənərkən onun əsasən kitab halında çap olmuş əsərlərini tədqiqata cəlb edirik. Doğrudur, hərdən cəfakeş tədqiqatçılar mətbuat materiallarına da nəzər yetirə bilir. Bir sözlə, biz müəllifi daha aydın və parlaq dərk etmək üçün onu kitablarında daha çox axtarırıq. Yaxşı olardı ki, Şəfəq Nasiri də biz düşüncə materiallarının içərisində, məhz kitablarında görə biləydik.

Çox inamlıyam ki, Şəfəq Nasirin hələ kitab halına çevrilməmiş beş yüzə qədər yazısını kitab halında oxuya biləcəyəm.

Şəfəq Nasir 70-80-ci illərdəki qızğın və səmimi ədəbi döyüşlər mühitindən keçib. Ədəbi mübahisələr, tənqidə qarşı tənqid, ədəbi nöqsanlara qarşı barışmazlıq, əsas meyarın dəyərli söz olduğu həmin dövrü az-çox hər birimiz, yəni həmin dövrün şahidləri xatırlaya bilirik.

Sözə sağlam münasibət baxımından 70-80-ci illərin özündə bir mükəmməllik var idi. Hətta deyərdim ki, fikir azadlığı, düşüncə demokratiyası heç də indikindən aşağı səviyyədə deyildi. Yəqin, elə bu səbəbdən mən həmin dövrün müəlliflərində sözə münasibətdə bir bütövlük görürəm. Yəqin, elə Şəfəq Nasir də həmin dövrün ədəbi mühitində formalaşmış ədəbi obrazlar silsiləsində istisna deyil.

Şəfəq Nasir sözə məsuliyyətlə yanaşan, hətta mətndə bir kəlmə artıq ifadəyə belə güzəşt etməyən müəllifdir. Yəqin ki, onun sözə tələbkar münasibəti sözə məsuliyyətlə yanaşmasından irəli gəlir. Onun "Söz demək məsuliyyəti" adı altında bir neçə silsilə publisist yazısı var ki, bu yazıları ilə o, cəmiyyətin diqqətini mövcud problemlərə yönəltməyə çalışır. "Mənim də sözüm var", "Ziyalı taleyi", "Görümlü, duyumlu dünya", "Məktəbli geyimi", "Ən uca zirvədə", "Onun gözəllik dünyası", "Yazdıqlarıma qayıdıram"... kimi yazıları var ki, hər biri haqqında geniş və əhatəli, dərin və tutumlu söz demək olar.

"Mənim də sözüm var" adlı qeydlərdə əvvəlcə mühitin xarakteristikası verilir. Xüsusilə hər kəsin həyata öz münasibəti olduğunu qeyd edən müəllifin hər kəsin düşüncə imkanlarına, ifadə tərzinə meydan verilməli olduğunu təqdir etməyini bu gün xüsusilə qiymətləndirmək lazımdır. Çünki həmin yazı 10 oktyabr 1990-cı ildə ("Yeni fikir" qəzetində) dərc olunub. Və məlum olduğu kimi həmin dövr yeni dünya uğrunda mübarizə dövrü idi. Çətinliklər, təzadlar, ziddiyyətli qarşıdurmalar həmin dövrü xarakterizə edən əsas əlamətlər idi. Şəfəq Nasir də bütün bunları yaxşı bilirdi və həmin dövrdə söz deməyin necə çətin olduğunu da anlayırdı. Xüsusilə, milli münasibətlərin kəskinləşməsi, Azərbaycanın tarixi ərazilərinə təcavüzlər ümumiyyətlə, milli varlığa qarşı yönəlik iddialar, qərəzli münasibətlər cəmiyyətin mənəvi mühitində kəskin etirazlar doğurur. Ruhu sarsıntılar yaradırdı. Müəllif zamanın kəskin mühitində xalqı ruhən qoruyub saxlayan əsas güc mənbəyini yaddaş hesab etdiyindən yazır: "Gərək yaddaşımızın qaynaqlarında kök atmış müsibətləri lap çoxdan deyəydik. Çoxdan da özümüzə, sözümüzə, elimizə, torpağımıza söykək üçün səfərbər olmalıydıq. İş görməliydik. Xalq yapışıb üzdə olan beş-on nəfərin ətəyindən, böyüklük, başbilənlik umur. Onlar da ətəklərindən, bir parça "kəsib" verirlər xalqa ki, siznənik, harayınızı eşidirik. İki cəbhədə sinəsini "haqq üçün" sipər eləmək də müsəlmançılığımızdan qalma mirasdı. Mənim nəslim repressiya illərinin şahidi olmayıb. Amma repressiyanın qurbanları haqqında o dövrün iç üzünü açıb göstərən müxtəlif fikirli yazıları mətbuat səhifələrindən acgöz bir maraqla oxumuşuq. Yalanı, düzü seçə bilmişik. Görəsən, bizdən sonrakı nəslin taleyi necə olacaq? Gələcək indi yaşadığımız dövrə hansı adı qazandıracaq? Onun adına nə deyəcəklər? Təəssüf ki, dövrlər öz dövranını sürəndən sonra ad alırlar..." insanlar baş verən hadisələrdə daha çox başqalarını qınayır, təqsirkar hesab edirlər. Bu, dünən də beləydi, bu gün də belədir. Yəqin ki, uzaq gələcəkdə də bu stereotip düşüncədən çətin ki, yaxa qurtarsınlar. Çox vaxt da müəllifin qeyd etdiyi kimi, adamlar baş verən hadisələrə vicdani borcla qiymət verməyək istəmir. Onlar öz mövqelərini, əgər belə demək mümkünsə, dolanışıqlarını, başqa sözlə, başlarını salamat saxlamağa çalışırlar. Şəfəq Nasir publisist ustalığı ilə şəhərimizdə, əsas yaşayış ərazilərində baş alıb gedən natəmizliyi, çirkinliyi, mənəvi mühitimizdəki aşınmalarla bağlaya bilir. Təbii mühitdəki aşınmaların nəzdində biz cəmiyyətin özünün aşınan simasını görürük. Şəfəq Nasir dövrün məsuliyyət hiss edən naşiri, nəşriyyat işçisi olduğu üçün poliqrafiya sahəsinin problemlərini heç vaxt yaddan çıxarmır. Ayrı-ayrı sahələrdəki aşınmalar vicdanı olan ziyalını təbii ki, narahat etməlidir. Şəfəq Nasir dərslik problemini demək olar ki, ömrü boyu diqqətdə saxlayıb. Ayrı-ayrı vaxtlarda çalışdığı mətbuat orqanlarında bu sahəylə bağlı mövcud vəziyyət onun kəskin qələmi və aydın vətəndaşlıq mövqeyi ilə göstərilib. Məsələn, onun 90-cı ildə dərsliklərlə bağlı yazdığı qeydlər təkcə tarixi əhəmiyyət daşımır. Həm də bu gün də bir çox hallarda mübahisə doğuran dərsliklərimizin xəstəliyinin müalicəsində əhəmiyyətli ola bilər: "Bəlkə elə ona görə də dərsliklərimizin vəziyyəti ildən-ilə yaxşılaşmaq əvəzinə daha da korlanır. Bir vaxtlar yadımdadı, dərsliklər mağazalarda azad satılırdı. Amma indi satış bir yana dursun, heç məktəblərə də lazım olan sayda çatdırmırlar. Nəşriyyatların kitabları aylarla, illərlə mətbəələrdə yatıb qalanda deyirlər ki, dövlət sifarişlərini - uşaq ədəbiyyatını, dərslikləri qabağa salıblar. Nəticədə məlum olur ki, yalandı. Tələm-tələsik işıq üzünə çıxarılanlar ayrı-ayrı adamların maddi marağını təmin edən kitablardı. Bu sahədə işləsəm də mən iki məktəbli övladıma dərslik tapa bilmədim. Uşaqlar bu il də məktəbdən verilmiş köhnə, səhifələri qopub tökülən kitabların ümidinə qaldılar. Amma hər uşağın arzusudu ki, təzə kitabları olsun. Bu da bir sevincdi". Bu qeydləri publisistikamıza gələn gənclər üçün özünü ifadə baxımından dəyərli olar düşüncəsi ilə misal gətirdim. Doğrudur, indi çox istedadlı gənclər var. Ancaq bəzən sözü ya həddindən artıq çılpaq deyir, ya da daha çox ikinci dərəcəli əhəmiyyət kəsb edən məsələlərdən bəhs edir.

Müəllifin qeydləri təkcə onun düşüncə sistemi haqqında düşüncə yaratmır. Ümumiyyətlə bir şəxsiyyət kimi onun həyatdakı yerini də təsir imkanlarını da yazılarından görə bilirik, duya bilirik: "Bəli, bir naşir kimi məni bu gün respublikamızda kitab mədəniyyətinin səviyyəsi ciddi narahat edir. Bu gün adını çəkdiyim bu sahənin işi arzuolunan səviyyədə deyil. Hətta, mən deyərdim ki, acınacaqlı şəklə düşüb. Yaxşı, gərəkli, xüsusən poliqrafik icrası baxımdan səviyyəli kitab nəşr etmək əsasən müşkül olub. Çox yerlərdə olduğu kimi, bizim sahəmizdə də xüsusi mülkiyyətçilər peyda olub. Cəmiyyətin, xalqın mənafeyinə xidmət edəcək kitabların qabağını qara sipər alıb. Başqa bir tərəfdən, maddi imkanın var, buyur, nə istəsən nəşr elə. Xırda məişət dedi-qodusundan tutmuş siyasətəcən - hər şey. Özü də bu gün nə yazırsan, nə çap eləyirsən, inanırlar, buna baş aldatmaq da deyirlər. Amma yəqin ki, məhşər gününün çatan vaxtı da olacaq..." Şəfəq Nasirin publisistika yaradıcılığında bir həyəcan var. Sanki bu həyəcanı o, cəmiyyətin özündən alır. Və aldığı gücdə də öz emosialarını əlavə etməklə cəmiyyətə ötürmək istəyir: "Qeyrəti, birliyi, bütövlüyü olan xalq basılmazdı. Əsrlər ötdükcə bu xalq tarixin daş yaddaşında beləcə də yaşayır. Beləcə də hər dövrdə əsas məqsədinə, böyük amalına qalib gəlir. Amma biz ən ağır dəqiqələrimizdə də tayfakeşlik, zonabazlıq mərəzindən, xilas ola bilmirik. Göydən daş yağa ha, yenə hamılıqnan müqəddəs ocağımızın başına yığışmağa qeyrətimiz çatmır. Bu cür vəziyyət isə istəməyənlərimizin dəyirmanına çaylar axıdır". Sözünün sonunu yenə "Yaddaş məhkəməsi" obrazı ilə bitirir. Sanki bununla təzədən insanlara xəbərdarlıq məlumatı ötürür.

" Yazdıqlarıma qayıdıram" sərlövhəli qeydlər də "Söz demək məsuliyyəti" silsiləsindəndir. Bu qeydlərə başlamazdan əvvəl öz zamanında sözə soyuq münasibəti qəbul etmədiyini, dəyərli sözün öz qiymətində olmadığını diqqətə çatdırır. Onun düşüncəsinə görə həyatda bütün nizamsızlıqlar nə vaxtsa öz nizamına düşür. Təbiətdə olan nizam həyatda da, cəmiyyətdə də özünü göstərir. Ancaq müəllif təəsüf edir ki, mətbuat sahəsindəki nizamsızlıq nizam axarına düşmür, sanki onu yazmağa da imkan verməyən elə bu mühitdəki nizamsızlıqdır. Ancaq müəllif "yaza bilməmək məsələsini sanki bir ədəbi fənd kimi işlədir. Başqa sözlə yaza bilmirəm" deyə-deyə maraqlı, oxunaqlı publisist sözü ilə çıxış edir: "Sözün çox çeynənildiyini, qədirsiz-qiymətsiz tutulduğunu, çox hallarda yalanlara, hədyanlara, iftiralara xidmət etdiyini görüncə içimdə doğulan sözləri içimdəcə dustaq etmişəm. Deyəcəyim sözlərə xalqın inamsızlığından qorxmuşam. Həsrətlə sözün ölçülüb-biçilməyini, doğru və təsirli deyimini, ona yerində sərhəd qoyulacağını, birbaşa xidmətini gözləmişəm. Elə bu düşüncələrlə də təzədən dolmuşam. Yaşadığımız mühitin ab-havasına, ağrılarına köklənmişəm". Bu yazının özündə də müəllifin dövrün mətbu mühitinə tarixi bir nəzər var. O, şahidi olduğu mühiti XX əsrin əvvəllərindəki mühitlə müqayisəyə çəkir. Müəllif ürək yanğısı ilə sözünün yiyəsi olmayan, kəlamının çəkisini bilməyən adamların mətbuatda meydan suladığına təəssüf edir. Onun fikrincə əlinə qələm götürüb yazan hər kəs bir mətbuat andına sadiq olmalıdır: "Qələmin müqəddəs vəzifəsi xalqa xidmətdir". Həsən Bəy Zərdabinin, Mirzə Cəlilin, Üzeyir Hacıbəyovun, qeyrilərinin açdığı yolla getmədiyini dərk etməyən hər kəs bu yoldan çəkilməlidir. Bu yol sözə sadiq olanların yoludur, - müəllif belə düşünür.

Şəfəq Nasirin publisistik yaradıcılığında milli şüur, milli düşüncə məsələləri həmişə ön plandadır. Onun fikrincə yalnız milli düşüncəyə xidmət edən adamlar milləti birləşdirmək gücündə olarlar. Ümumiyyətlə, Şəfəq Nasir milli problemləri həmişə diqqətdə saxlayır və xüsusi yanğı ilə bu məsələlərə münasibət bildirir: "Bu gün çoxsaylı qəzetlərimiz milləti birləşdirəcək ümumi dərdlərimizin acısından, kövrəkliyindən söz deyib, söz eşitmirlərsə, bu əsl cinayətdir. Elə bunun nəticəsidir ki, millətin içərisində bir-birinə zidd fikirlər, söz-söhbət baş alıb gedir. Sözü bu qədər də kəsərsiz edib ucuzlaşdıranlarmı? Bu milləti nə qədər müxtəlif söz-söhbətlə yolların ayrıcında kimsəsiz, inamsız, zərərli fikirlər içərisində qoyarlar? Adamın adama inamını bu qədər öldürərlərmi?". Şəfəq Nasir üçün qələmi ilə xalqın əsgəri olmaq şərəfli bir misyadır. Çünki onun düşüncəsində əlində qələm olan hər kəs tarixi bir missiya daşıyır. Axı, yazılanlar bizim istəyib-istəməməyimizdən asılı olmayaraq tarixə çevrilir. Gələcək nəsillər bu günümüzə bu günün mətbuatını öyrənməklə qiymət verəcək, dəyər verəcək. Şəfəq Nasirin bu qeydləri 22 il bundan əvvəl yazılıb: 22 dekabr 1998-ci ildə. Və "Respublika" qəzetində dərc olunub.

Şəfəq Nasirin ədəbi publisistik mübarizələrinin mahiyyətində vicdanlı ziyalı mövqeyi dayanır. Ona görə də bu qeydlərin yazılmasının zamanından illər keçsə də, hər bir yazıda günümüz üçün dəyərli olan nələrisə görürük.

Dəyərli düşüncəyə mənsub olmaq ruhun yaşarılıq qaynağı yaddaşımız üçün güclü təsir mənbəyidir.

*21.05.2020*